Xalq qəzeti .- 2022.- 9 iyul.

# UNESCO-dan İrəvanın Təpəbaşı məhəlləsinə də diqqət gözləyirik

***Qədim Azərbaycan şəhəri olan İrəvanda azərbaycanlılara məxsus sağ qalan sonuncu yaşayış məntəqəsi – Təpəbaşı məhəlləsinin vəziyyəti ilə bağlı araşdırmaların nəticəsi xalqımızın irsinə qarşı mədəni soyqırımının davam etdiyini bir daha təsdiqləyir. Ermənistanda Azərbaycan xalqının milli mədəni-tarixi irsinin məhv edilməsi bütün dünyaya bəyan olunmalı və məsələyə hüquqi qiymət verilməlidir. Azərbaycan alimləri və ictimai xadimləri həyəcan təbili çalaraq, UNESCO-ya müraciət ünvanlayıblar. Təşkilatdan bu vandallığa reaksiya verməsini və Ermənistana "dur!" deməsini gözləyirik.***



Məlum olduğu kimi, 2022-ci il fevralın 4-də Azərbaycan, Fransa, Ermənistan liderlərinin və Avropa İttifaqı Şurasının rəhbərinin videoformatda görüşünün nəticəsi olaraq, həm də UNESCO-nun Ermənistana və Azərbaycana missiyalarının həyata keçirilməsi gözlənilir. Azərbaycan ictimaiyyəti UNESCO-dan missiyanın gedəcəyi ünvanlardan biri kimi Təpəbaşı məhəlləsinə baş çəkməsini gözləyir. İndiki Ermənistan ərazisində Azərbaycan xalqına məxsus Göy məscid, Qala məscidi, Şah Abbas, Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb Paşa, Məhəmməd Sərtib xan, Hacı İnam məscidləri kimi 300-dən çox ibadət yerlərinin bərpaya ehtiyacı var. Qərbi Azərbaycanın hər yerində onlarca, yüzlərlə türk toponimləri mövcuddur. Burada erməni mənşəli toponim olmayıb, hamısı türk mənşəlidir. Ermənistanda azərbaycanlılara məxsus 500-dən çox qəbiristanlığın məhv edilməsi, Azərbaycanda aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin qəbirinin dağıdılması əsl vandallıq aktıdır. Alban-xristian məbədlərinin isə xarici görünüşünü dəyişdirməklə, onları erməni-Qriqorian məbədlərinə bənzətməyə çalışıblar. Bu, Ermənis-tanın heç bir ümumbəşəri dəyər qəbul etmədiyini təsdiqləyir.

Ermənistan bu davranışlarına görə beynəlxalq hüquq qarşısında məsuliyyət daşıyır. Prezident İlham Əliyev də dəfələrlə çıxışlarında Ermənistanda Azərbaycan irsinin dağıdıldığını dünya ictimaiyyətinin diqqətinə çatdırıb.

Ümumiyyətlə, Ermənistanda Azərbaycan xalqının tarixi-mədəni irsinin dağıdılması, silinməsi prosesi 90-cı illərdən sonra daha geniş vüsət almağa başlayıb. Monoetnik Ermənistanda 90-cı illərdən əhalinin azalması prosesinin sürətlənməsini, yaşayış məntəqələrinin genişləndirilməsi zərurətinin olmamasını nəzərə alaraq, Azərbaycan xalqının tarixi-mədəni irsinə qarşı faşizmyönlü dövlət siyasəti yeridilməyə başlandı. İşğal dövründə isə bu vandallıq və saxtalaşdırma siyasəti Qarabağda və Şərqi Zəngəzurda davam etdirildi.

Azad edilmiş ərazilərə səfər edən xarici jurnalistlərin, diplomatik korpusun, beynəlxalq təşkilatların nümayəndələri burada gördüklərindən dəhşətə gəldiklərini gizlətmirlər. Məcsidlərin tövlə kimi istifadə edilməsi, saxtalaşdırılması, qəbirlərin təhqir olunması ermənilərin iç üzünü növbəti dəfə dünyaya göstərdi. Ümumiyyətlə, mədəni abidələrin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdirilməsi və özününküləşdirilməsi beynəlxalq humanitar hüququn, xüsusən də 1949-cu il Cenevrə konvensiyalarının, UNESCO-nun 1954 və 1970-ci il konvensiyalarının kobud şəkildə pozulmasıdır. BMT Təhlükəsizlik Şurasının 2017-ci ildə qəbul etdiyi tarixi 2347 saylı tarixi qətnaməsinin də müəyyən etdiyi kimi, mədəni irsin qəsdən dağıdılması, həmçinin sülh və təhlükəsizlik məsələsidir.

Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi "Ermənistan və Azərbaycan arasında münaqişənin humanitar nəticələri. Dağlıq Qarabağ münaqişəsi" adlı qətnamədə də qeyd olunur ki, əvvəllər Ermənistanın dəstəklədiyi separatçıların nəzarətində olan və Azərbaycan tərəfindən azad edilən ərazilərdə vurulan zərərə və dağıntılara, "xüsusilə də Ağdam, Füzuli və digər ərazilərin, demək olar ki, tamamilə dağıdılması və talan edilməsinə, habelə son 30 il ərzində mədəni irsin istismarına" görə Ermənistan məsuliyyət daşıyır. Ermənistan bu cinayətlərini ört-basdır etmək üçün hər zaman faktaraşdırıcı missiyanın əleyhinə olub. Təəssüf ki, UNESCO-nu daha çox narahat edən yalnız kilsələrin vəziyyəti idi. Halbuki, Azərbaycan ərazisində bir dənə də olsun kilsənin məhz azərbaycanlılar tərəfindən dağıdılması faktına rast gəlmək mümkün deyil. Əksinə, bu gün də Bakının mərkəzində ermənilərin dini məbədi qorunub saxlanılır, onlara qarşı heç bir təhqir və ya hörmətsizlik edilmir. Dövlət tərəfindən bərpa edilərək mühafizə olunan Bakının mərkəzindəki erməni kilsəsində ədəbiyyat fondu saxlanılır.

Təsadüfi deyil ki, dünya şöhrətli fotojurnalist Rza Deqati Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayıl rayonlarında onlarca azərbaycanlı qəbiristanlığının sistemli şəkildə dağıdılmasını lentə alaraq sənədləşdirib. Məhz onun əldə etdiyi faktlardan ibarət hesabat ABŞ Dövlət Departamentinin rəsmi internet səhifəsində dərc olunub. Həmin hesabatda da vurğulanır ki, azərbaycanlılara məxsus qəbirlər təhqir edilib, bəzi hallarda qəbirləri qarət etmək üçün çuxurlar qazılıb, digər yerlərdə isə ağır tikinti texnikasından istifadə edərək qəbirlərin dağıdılıb qarət edilməsinə dair sübutlar toplanıb. Bir çox qəbirlərin başdaşları və sinədaşları dağıdılıb. Bundan əlavə, azərbaycanlıların cəsədlərinin qalıqları və sinədaşları təhqir edilib, qızıl dişləri çıxarılıb, sümükləri isə ərazilərə səpələnib. Erməni məzarlarının, demək olar ki, toxunulmaz qaldığı həmin hesabatda da əksini tapıb.

Bir sözlə, UNESCO-nun istər işğaldan azad olunmuş , istərsə də indiki Ermənistan ərazisindəki azərbaycanlılara məxsus abidələrlə, mədəni irslə bağlı ədalətli mövqe sərgiləməsinə ehtiyac var. UNESCO abad kilsələrə görə narahat olduğu qədər dağıdılmış, təhqir olunmuş məscidlərə, yox olmaq təhlükəsi ilə üzləşən Təpəbaşı məhəlləsinə görə də narahat olmalıdır.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***